İnam Evi
dərgisinin
Özəl buraxılışı

1 Günəş Ayı, 41-ci il
(01.03.2019)

# ATA YOLU



**_Asif Ata (İnam Ata)_**

Mənim üçün Son yoxdur – Sonsuz var; Sonluq yoxdur – Sonsuzluq var; Nisbi yoxdur – Mütləq var; Keçici yoxdur – Əbədi var…

Mənim üçün Var olan – qurtarmır, Bitmir, Tükənmir…

Mənim üçün Şər Var olmur, çünki Şərin özü yoxdur – Şər Xeyirin Yoxluğudur. Ona görə də Sözümüz qurtarmır.

Amalın sonu yoxdur...

# MÜTLƏQƏ İNAM OCAĞININ 40 İLLİYİ İLƏ ÜZ-ÜZƏ

**_Soylu Atalı_**
*(Mütləqə İnam Ocağının Yükümlüsü)*

Ürəyində Günəş olsun, sayğılı oxucu!

Biz dönə-dönə bilgilər verdik: istər basın yayınlarında, istər internet sitələrində, istər canlı şəkildə üz-üzə. Çoxluqla (kütləvi), ya da bireysəl görüşlərdə dedik, anlatdıq Ocağı. Asif Atanın gənclik dönəmini, öyrənci olduğu illəri, yaşam çətinliklərini, milli-mənəvi döyüşlərini necə yetirməsini öyrəndik də, öyrətdik də. Bundan sonra da yazacağıq, deyəcəyik. Ancaq bu yazıda o bilgiləri geniş deyil, yığcam deməyə çalışacağıq. Bu, bir “Özəl Buraxılış” səhifələri üçün gözə alınan yazıdır. Asif Atanın Mütləqə İnam Ocağı özünün 40-cı ildönümünü başa vurur. “İnam”ın 40 illik dönəmi nə deməkdir, nə baş verdi, haradan haraya gəldik?! Biz bunları toplumumuza bildirməyə borcluyuq.Toplumumuz da bunları bilməyə, öyrənməyə borcludur. Çünkü biz bu yaşamı özümüz üçün qurmadıq. Bu bir Döyüş yoludur. Bu Yolda yürüməyin anlamı Ulusumuzun varlığına bağlıdır. Yurdumuzda yüzlərcə qurumlar, təşkilatlar yaranıb, dağılıb. Onlardan, bu gün, hələ yaşayanları da var. Bunların hamısı toplumumuzun xeyrinə çalışdıqlarını elan etmiş, ancaq çoxları, bilərəkdən, ya da bilməyərəkdən, yurdumuza qarşı olan güclərin buyruğunda çalışmışlar. Bununla belə, heç kimin ulusal yön-





də əməyinə kölgə salmadan demək istəyirik, Asif Atanın Mütləqə İnam Ocağı bu qurumlardan biri deyil. Gerçəkçi, fiziksəl durumu istənilən düzeydə, gücdə olmasa da, məna yükü bütün çalışmalardan daha yüksəkdə, daha dərindədir. Öncələr də vurğu elədiyimiz kimi, insanın da, xalqın da varlığı, yaşam ölçüsü, gələcəyi birbaşa ruhaniyatla bağlıdır. Çünkü iqtisadiyat da, mədəniyət də, bilim də ruhaniyatdan qıraqda toplumun yaşamına doğru etki göstərmir. Baxın, iqtisadiyat, bilim, gəlişməsi baxımından, özünün ən yüksək düzəyinə gəlib çatmışdır. Hələ də gəlişmə qabağa gedir. Ancaq bəşəriyət hələ də ağgünlü (xoşbəxt) deyil. Bir yanda aclıq, bir yanda zənginlik üz-üzə dayanıb. İnsan öz növündən olanla birgə yaşamaqda gərəkən nizamı tapmır. Ağa-qul gedişi ortadan qalxmır. Bu ona görədir, ruhaniyat sarsılıb, yalana bürünüb, insanın eyitimində, içinin qurulmasında etki göstərə bilmir. Bilməyəcək! Çünkü ruhaniyat yerinə antiruhaniyat yeriyib içimizə, ruhumuz işğal olunub. Bəsit, geriçi şüurla yaşayırıq. Min illər öncəki qaranlıq şüur ulusal yaşamımızda doqmata çevrilib. Həm içimizdə, həm dışımızda bəlli gerilikçi şüurdan, ruhaniyat adına antiruhaniyatdan qurtulmağımızın yolunu kəsir. Ruhumuzdakı gerilikçilik – ərəbçilik şüurudur. Bu şüur toplumumuzu bu gün də sürüyə çevirməkdədir. Ancaq nə aydınlar, nə bilim adamları, sistemli şəkildə, bu gerilikçi şüurla döyüşmürlər. Aydın adına, bilim adına bir çoxları isə bu gerilikçi şüurun yaşamasına daha da ortam yaradırlar. Bunu düşünməyin, öyrənməyin, döyüşməyin zamanı çoxdan gəlib çatıbdır.

Ruhaniyat – toplumun İnsanlıq qanunları ilə yaşaması deməkdir. Ancaq ruhaniyatı oyuna çevirən Ərəbçilik dünyagörüşü İnsanlığın da oyuna çevrilməsinə yol açıb. Ulusumuz min ildən artıqdır bu facieni yaşamaqdadır. Ona görə də geriləməkdə, dağılmaqda davam edir. Asif Ata ulusumuzu qurtarmaya bu nöqtədən başladı. İnamı yalandan, ruhaniyyatı oyundan qurtarmaq üçün yaratdı Ocağını. İslamın ərəbçilik,



ərəbləşdirmə şüuru olduğunu anlamayanlar Asif Ataya dirəniş göstəriblər. Ancaq biz, Ulusal sevgimizin gücünə dayanıb, bunu toplumumuza anlatmaq yolunda yürüyürük, yürüyəcəyik. Alınacaqmı, dayanacaqmı, bilmirəm. Bu Yolun əbədi yaşaması – xalqın ona yiyə çıxmasından asılı olacaq. Biz belə sayırıq, bilimə, idraka, düşüncəyə dayanan, çağdaş yaşamın tələblərinə uyğun olan Mütləqə İnam Dünyabaxışından yan keçib İslama tapınmaq gələcəyimiz üçün qorxuludur. Yaşamımızdan çıxarılmış, tarixə çevrilmiş, İslama bulaşdırılmış (bu, ya başqa şəkildə) Tanrıçılığa (qayıdışa) çağırmaq da yanlışdır. (Çoxsaylı millətçilərin belə, Allah-Tanrı ayrıntısı yoxdur).

İndi isə "haradan hara gəldik" sorusuna qısaca aydınlıq gətirməyə çalışaq. Bunun üçün Ocağın yaşamını,-çalışmasını (şərti olaraq) iki aşamaya ayırmaq olar: Asif Atanın sağlığındakı dönəm, Asif Atanın ölümündən sonrakı dönəm. Dediyimiz kimi, Asif Atanın axtarışlara başlaması olduqca çətin bir dönəmdə gerçəkləşmişdir. Sovet imperiyasının xalqları tam işğal etməsindən 20 il sonra Milli İdeya haqqında düşünmək, hansısa bir uğur əldə eləmək ağlasığmayan bir məsələ idi. Milli düşünərlərin 37-ci il soyqırımı tarixin ən acımasız olaylarından biri sayılır. Bu yaraların sağalması, ən azı yüz il tələb eləyən gerçəklikdir. Öyrənciliyi yenicə başa vurmuş (1957-ci il) gənc Asif Əfəndiyevin yenidən Milli şüuru oyatmağa girişməsi – ölümü gözə alması demək idi. Ancaq ölümə qədər də ölüm aşamaları var: böhtanlanmaq, aşağılanıb gülünc duruma salınmaq, psixoloji basqılarla gözdən salınmaq. Asif Əfəndiyev bütün bunları addım-addım yaşamalı oldu. Ancaq geri çəkilmək, yenilib sıradan çıxmaq olmazdı. İçində baş qaldıran Millət sevgisi, həqiqət sevgisi gücünü artırır, inadını bərkidirdi. Yollar aradı, bəzən bu yolda geri çəkilən göründü. Keçici güzəştlərə getdi. Məsələn, Bakıda qalıb axtarışlarını başa çatdırmaq, yolunu bəlirləmək üçün "sosialist realizmi"ndən müdafiə edib elmi diplom aldı. Universitetdə öyrətmənliyə başladı. Ədəbi tənqidlə uğraşdığını qabardıb rəsmi baxışları özündən, gələcək ideyalarından uzaqlaşdırmağa çalışdı.

Özünün dediyi kimi, Şəri aldatdı. Ancaq düşüncələrinin ilk rüşeymlərini ortaya çıxarandan sonra yeni basqılar, təqiblər ortaya çıxdı, yenə şəri aldatmağa çalışdı, yenə gizlinə çəkildi i. a. Gizlində ideyalarını işlədi, düşüncələrini bəlirlədi, 1979-cu ildə istəyini yetgin şəkildə ortaya qoydu – Ocağını elan elədi. Asif Əfəndiyevdən Asif Ataya yüksəldi. "Dövlət Təhlükəsizlik Komitəsi" ona qarşı işə başladı, adına dəli dedilər, özünü uyduran dedilər, yolunu azan, gəncliyi yoldan çıxaran, millətə, dövlətə sorun yaradan damğası vurdular. "Antikommunist", "antimarksist", "antisosialist", "revizionist", "pantürkist", "faşist epitetləri ilə damğaladılar. 8 il bir, 13 il bir olmaqla üst-üstə 21 il çap olunmağına yasaq qoydular. Toplumla hər cür bağlantılarını kəsdilər. Basqı göstərib ailəsini dağıtdılar, kirayələrdə yaşadı, kirayə yiyələrinə basqı göstərib qovdurdular.

Bir sözlə, Asif Ataya qarşı insanlığın bütün çalarlarını öldürdülər. Yenidən Şəri aldatmaq, heç olmasa işə düzəlib acından ölməmək, ideallarını gizlincə insanlar arasında yaymaq olanağı qazanmaq gərək idi. Çətinliklərlə olsa da, bunu az biçimdə eləyə bildi. Üzdə iddialarından əl çəkdiyi görüntüsü yaratdı, ancaq gizlində birey-birey (fərd-fərd) görüşlər keçirib yandaşlar topladı. Ədəbi tənqid yönündən iki kitabını basdırdı. Onun üçün ədəbi tənqid bəhanə idi. Gizlində İnamın fəlsəfəsini yazıb hazırlayırdı. İlk olaraq "Mütləqə İnam Beşliyi"ni başa çatdırdı. "Beşlik" gizlin olaraq əldən-ələ gəzirdi, üzü artırılıb yayılırdı. Şər isə artıq onunla köklü uğraşa bilmirdi. Çünkü imperiya dağılmaqda idi. 1989-cu ildən başlayaraq, Asif Ata gizlilikdən açıqlığa çıxdı, 1990-cı ildən çap olunmağa, görüşlər keçirməyə başladı. Hər yerdən görüşünə gələnlərin, ilginənlərin sayı çoxalmağa başladı. Asif Atanın yazıları, görüşləri həm millətçilik yönündə, həm də siyasi proseslərin gəlişməsində güclü etkiyə çevrilmişdi. Ancaq Asif Atadan asılı olmadan, siyasi gedişlər millətçilik proseslərini üstələdi. Ölkənin içində yenidən yanlış yön başladı. Yeni asılılıq dalğaları gəldi: demokratik-liberalizm ideolojisi düşüncələrə anarxiya gətirdi. O biri yandan, məqsədyönlü şəkildə, dinçilik şüurunu qabartdılar.




Sonra hakimiyət dəyişdi. Millətçilik şüuru əzildi. Bütün bunlara baxmayaraq, Asif Ata, var gücü ilə çalışıb, düşüncələrini ölkənin içində də, dışında da yayırdı. Ocağının biçimini işləyib hazırlayırdı. Atalıq-Evladlıq olayı, ruhsal Ailələrin yaranması (şərti olaraq adına Ocağın dayaq nöqtələri deyək), "Ailə Günü" olayının araya gəlməsi (Gün araçılığıyla insanın kamilləşməsi gedişi), İlsıranın, Günsıranın işlənib hazırlanması, Ocaq Törənlərinin yaranıb keçirilməsi, Ocaq Bayrağının işlənib hazırlanması, İnamın fəlsəfəsinin yazılması, Ocağa Evlad götürülməsinin biçimi artıq hazır idi. Ancaq hələ görüləsi işlər, yeni Qurumun, biçim olaraq, tam şəklə düşməsi yönündə atılası addımlar başa çatmamışdı, Asif Atanın fiziki ömrü başa çatdı (1997-ci il, Şölə Ayının 5-i). Bundan sonra Mütləqə İnam Ocağının ikinci aşaması başladı – Atadan sonrakı dönəm.

Hələ Ocaqçıların Ocağı anlaması, yetginləşməsi bəlli bir düzəyə gəlib çatmamış Asif Ata aramızdan getdi. Hansısa siyasi qurum, təşkilat olsaydı, yasaların göstərdiyi biçimdə toparlanıb yönətmək olardı. Ancaq Ocaqda necə var olmaqla, onu necə yönətməklə bağlı heç bir örnək, təcrübə yox idi. Ona görə öncələr çaşdıq, bəlirsizlik içində qaldıq, biliksizlik, yetginsizlik ucbatından bölündük, parçalandıq, azaldıq. Ancaq bütün bunlara baxmayaraq, Ataya, Onun irəli sürdüyü ideyaların millətimizə gərəkliyinə bağlılıq bizi ayaqda tutdu, toparlandıq. Gücümüzü toplayıb Atanın işini dərindən öyrənməyə başladıq. Öyrəndikcə yaşatmağa, yaymağa çalışdıq. Çətinliklər içinə girdik, gah umudlandıq, gah umudsuzlandıq. Ancaq dönmədik, dönük olmadıq. Başlanğıcda Atanın bütün əlyazılarını bir araya topladıq. (Atanın sağlığında əlyazılar ayrı-ay-

rı Ocaqçıların əllərində idi). Üzünü artırıb çoxaltdıq, öncələr makinada, sonralar bilgisayarda yazıb kitablar



şəklinə saldıq, üzlədik. Özümüzdə də saxladıq, başqalarına da payladıq. Yüzlərcə, minlərcə bülletenlər, Özəl Buraxılışlar, Günsıra vizitləri, dərgilər hazırlayıb çap elədik. Görüşlərdə, səfərlərdə yaydıq. Ara-sıra televiziyalarda, daha çox radyolarda çıxışlar elədik.İnamın gərəkliyini, ideya yönünü, milli-insani gücünün anlamını aydınlatdıq. Yüzlərcə orta, yüksək oxullarda görüşlər keçirdik, ədəbiyatlar payladıq. Asif Atanın kitablarını ayrı-ayrı çağlarda çap elədik, yüzlərlə sayda çap olunan kitabları həm insanlara payladıq, həm də rayon, şəhər kitab evlərinə bağışladıq. Atanın görüntü, səs kasetlərini səsdən yazıya çevirdik, kitablaşdırıb üzlədik. Eləcə də Evladların kitabları çap olundu, yayıldı. Türkiyəyə, Avropaya, Rusiyaya, Güney Azərbaycana ayrı-ayrı ədəbiyatlar göndərdik. Min bir çətinliklə İnam Evini (Məbədi) tikdik – özümüzəxas arxitektura ilə. Saytlar yaratdıq, Ocağın gündəlik, aylıq əməllərini, yazılarını yayımladıq, indi də davam edirik. Ocağa yeni Evladlar gətirdik. Atanın ideyalarına dayanıb "Ölügötürmə quralı" yaratdıq, yazdıq, kitablaşdırdıq, iki yol (400 say olmaqla) çap elədik, kitab evlərinə, bireylərə bağışladıq. Yenə Atanın düşüncələrindən qaynaqlanan "Evlənmə quralı" yazdıq, iki yol çap edib kitab evlərinə, bireylərə bağışladıq. Atanın nəzəri yazdıqlarına dayanıb, Ocağın 20-ci ilindən başlayaraq, Ocaq Bayramlarını gerçəkləşdirdik.

Onlarca evlənənlərə "Beşikbaşı Törəni" keçirdik, Ocağın adından evlənənlərə Beşik alıb bağışladıq. Onlarca ölənlərimizə Ocağın yas-ölügötürmə qurallarına uyğun törənlər keçirdik. Bu işləri Ocaqçılarla, Ocaqsevərlərlə birgə gerçəkləşdirdik.

Bütün bunlarla yanaşı, yüzlərcə qapılar üzümüzə bağlandı.Dönə-dönə hüquqqoruma orqanlarına çağrıldıq, dindirildik, bildirişlər aldıq. Toplumun ayrı-ayrı bireyləri, qurumları bizə qarşı aşağılayıcı söz dedi, təbliğatlar apardı ( bu gün də bu əməllər bəlli bir biçimdə davam edir). Oxullarda keçirdiyimiz görüşlərə görə "Baş Mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsi"nə çağrıldıq, ölkədən çıxışımıza yasaq qoyuldu, evimiz arandı. Ancaq doğru olmayan bir işdə bizi suçlamağa səbəb tapa bilmədilər. Qorxmadıq, çəkinmədik, çünkü haqlı olduğumuzu, doğru yolda yürüdüyümüzü anlamışıq.

İstəkli oxucu, bu gün böyük filosof, Mütləqə İnam Baxışının Atası Asif Atanın – Ocağını yaratmasından 40 il keçir. Bu 40 ildə əməklərimiz, yaşantılarımız, sözün doğru anlamında, 40 kitaba belə yerləşməz. Ancaq biz sizə yığcam bilgi verməyimizi gərəkli saydıq. Sizə isə, Yurdunuzda belə bir Milli-İnsani-Bəşəri Baxışın varlığını bilmək, öyrənmək düşür. Öyrənə bilsəniz, Millət olmağa başlayarıq. Bu, bizim sizə ərkimiz, içdənliyimizdir. Asif Ata Musadan, Məhəmməddən daha böyük Yol yaradıb, Ulusuna daha böyük qurtuluş Yolu sunur.

Yükümüzdən Böyük Fərəhimiz yoxdur!

Atamız Var olsun!

***3 Köçəri Ayı, 40-cı il. Saray-S.***

# OCAĞIN ƏMƏL-YAŞAM YÖNÜ

*Nurtəkin Atalı*

Ocağın 40 ili – Özümlü Ruhaniyat tarixinin 40 ilidir. Asif Atanın çətinlikləri, imtinaları, qurbanları bahasına başladı Ocaq. Ocağa insanlar gəldi, Ataya səcdəli yanaşmaları ilə əməl gördülər, Ocaq sorağı yaydılar.

Gələnlər də oldu, gedənlər də. Ancaq qalanlar Ocağa ömürlərini verdilər. Ocağın yaşaması üçün yaşadılar. Özünü böyütmə yolu keçmək – kimliyini, Yükünü anlamaq yönü yaratdı. Ulusal varlığın bireysəl kimliklə bağlılığı Yalansız İnamın, Oyunsuz Ruhaniyatın ideya-prinsiplərində dərk olundu.

Min illərin keşməkeşlərində yaranan "Dünya necədir, həyat nədir, insan kimdir?" sorularına bu Yolda – Ata Yolunda cavab tapmaq aydınlığa çıxdı. Özünü yaratdıqca kim olduğunu anlayırsan. Hardasan, hardan gəlib hara gedəcəksən, dünənin nədir, bugünün nə, sabahın nə olmalı? – Özünü yaratdıqca millətini tanıyırsan, bəşəri tanıyırsan. Millətin sabahının sorumluluğu yükünü daşıyırsan. Suallar cavabını tapır zaman-zaman. Suallar yolun başlanğıcı, cavablar yolun davamı olur.

Ata "Mütləqə İnam" Bitiyində yazır: ***"Özümü eşitdim. "Mütləqə İnam" Beşliyini ("İnsan", "İnam", "Ruh", "Həyat", "İntibah" kitablarını) yazıb qurtardım. Borana düşdü Beşlik. Çap olunmadan qadağan olundu. Bəxtiyaram. Ömür sevdam baş tutdu, arzuma çatdım. Kitablarımın, Evladlarımın Atası oldum.***

***Kitabları ilk növbədə azərbaycanlılar üçün yazdım. Mənim üçün Azərbaycan azərbaycanlıların cəmindən artıq, böyük, yüksək olan bir varlıqdır. İstədim ki, o, öz müqəddəs mənasına layiq olsun.***

***Kitabları həm də bütün insanlar üçün yazdım.***

***Mənim üçün bəşər insanların cəmindən artıq, böyük, yüksək olan bir varlıqdır. İstədim ki, o, öz müqəddəs mənasına layiq olsun.***

***İstədim ki, insanlar yaşasınlar..."***

Bu ideyalarla, düşüncələrlə yaşadı Ata. Atadan sonra bu ideyaların, düşüncələrin yaşaması sorumluluğu Ocaqçıların üzərinə düşdü.

19-cu ildə (1997) Asif Atanı itirdi Ocaq. Hər əməldə, sözdə, törəndə Atanın yönəticiliyinə, gənəşmələrinə, göstərişlərinə alışmışdı Ocaq Evladları. Atanı itirmək sarsıdıcı oldu, gözlənilməz oldu. Bu da, ilk çağlarda, Evladların bir-birini anlamasında, qəbul etməsində çətinliklər yaratdı. Bütün çətinliklərə, əngəllərə baxmayaraq, Ocaq durumdan çıxdı, bu günə qədər yaşadı, Ata Yolunun gərəkliyini baxışlara çatdırdı, xalqın içində yaydı. Bir sözlə, Atadan sonra da çox işlər gördü Ocaq. Bir yazıda bunları göstərmək çətindir. Hər bir əməl özündə Ocaqçı özündənkeçməsini, çətinliyini, gərginliyini, fərəhini, sorumluluğunu ifadə edir. Bu əməllər həm Evladları, həm də Ocağı yaşadıb, var edib, bu gün də var etməkdədir.

İndi qısaca, Ocağın 40 illiyi qarşısında, Atadan sonrakı dönəmin əməl hesabatını sunmaq istəyirik.

Ata sonevi (qəbiri) üzərində Soylu, Günev Atalıların zəhməti ilə tikili yaradıldı. Ocaqçıların yatırımı ilə, Ocaq ideyalarının simgəsi kimi, 6 sütun qaldırıldı. Sütunlar kəmərlə bir-birinə bağlandı. Hər sütunun üzərində (mərmər lövhədə) bir ideyanın adı yazıldı. Yastıqda Ocaq bayrağının simgəsi, sinə daşında Atanın görüşmək (salamlaşmaq) sim-



gəsi, “Mütləqə İnam” bityinin şəkli işləndi. Bir sözlə, Sonev Məbədi deyək adına, bu tikili sonradan bir neçə yol yenidən quruldu (təmir edildi). Sonuncu dəfə 37-ci ildə Soylu, Günev, Güntay Atalıların maddi yatırımı, zəhməti ilə bu iş yeniləndi.

Ata öldükdən sonra ilk əməllərdən biri də Ata kitablarının makinada üzünün artırılması oldu. Bitiqlərin bütöv nüsxəsi yox idi, bəziləri əlyazma halındaydı. Soylu Atalı çap makinası alaraq, Nurtəkin, Göylü Atalılarla birlikdə, bu kitabların yazılması işinə girişdi. Hər biri 5 sayda olmaqla, kitab şəklinə salınıb kustar üsulla (əl ilə) üzlənildi. Hər kəsin oxuması üçün Ocaqçılara verildi. Sonralar bu kitablar bilgisayarda yazılıb yenidən hazırlandı, üzü artırıldı.

Asif Atanın 45 kitabı, anlamına görə, 10-luqda sıralandı. Biz bu kitabların adına əski türkcədə olan “Bitiq” sözüylə 10 qutsal Bitiq dedik. Ancaq Atanın bir sıra deyimlərini, bəlgələrini, bədii yazılarını 3 Yan Bitiqdə sıraladıq. Bu bitiqlər həm latın, həm də Ocaq-türk abe’sində hazırlanıb üzləndi, Evladlara sunuldu. Evladların evinə bu Bitiqlərin bağışlanması özəl törən keçirməklə başa gəldi – “Qutsal Onluğun Qəbul Törəni” adı altında. Bu törənin keçirilmə ideyası Soylu Atalıya xasdır. Törənə Ocaqçılarla yanaşı Ocaqdostları da qatılırlar.

Ocaq-türk abe’sinin yaranmasının gərəkliyi haqqında Ata hər zaman vurğulamış, ulusumuzun özünün yazı mədəniyəti bərpa edilməlidir deyə onun gərəkliyini söyləmişdir. Atadan sonrakı çağlarda ixtisasca filoloq, Ocaqçı olmuş İnamnur-Reyhan, Orxon-Yenisey abe’si üzərində işləyərək, Ocaq-türk abe’sini yaratmışdır. Bu abenin vizitləri hazırlanaraq, görüşlərdə, səfərlərdə minlərcə insana paylanmışdır. Abe-miz internet sistemində proqrama salınmışdır.

Ocaqçıların yatırımı ilə Asif Atanın Bitiqləri (300-500 sayda olmaqla) çap edilmişdir. Kitab Evlərinə verilmiş, yüzləcə insanlara bağışlanmışdır.

“Yollaşan Aqibət” Bitiyində Asif Atanın “Muğam Fəlsəfəsi” yer alıb. Çap olunduğu il, Kitab Klubunda, Ocaqsevərlərlə birlikdə Bitiyin sunulması tədbiri keçirildi. Bununla bağlı televiziyalarda, qəzetlərdə bilgi yayımlandı. Elə həmin il Quba rayon televiziyasında Soylu Atalı ilə Ocaqdostu Ağşın Ağkəmərli çıxış eləmiş, Bitiqdəki Ocaq ideyaları, Muğam fəlsəfəsi haqqında söhbət aparmışlar. Bundan sonra Quba, Şabran bölgələrinin yazarları ilə görüşmüş, onlara Amal sorağı vermiş, Ocaq ədəbiyyatları bağışlamışlar.

Asif Atanın görüşlərində, tədbirlərdə yazılmış səs kasetlərini Evladlar yazıya çevirmiş, Göylü, Nurtəkin Atalılar bilgisayarda işləmiş, Soylu Atalının redaktorluğu ilə “Ata Səsi” Bitiyi yaranmışdır. Bitiq həm latın, həm Ocaq-türk abe’sində hazırlanmışdır.

Asif Atanın ədəbi tənqid yönündə yazdığı “İnam və Şübhə” bitiyini Göylü Atalı bilgisayarda yazmış, bitiq şəklində (hər iki abe’də) başa gətirmişdir.

Soylu Atalının hazırladığı “Türkdən başlayan yeni Bəşər İnamı” bitiyi Ocaqdostu İlqar Türkoğlunun yatırımı ilə basılmışdır. Bu bitiq Asif

Ata İnamı, ideyaları haqqında yığcam bilgidir. Azərbaycan, Türkiyə türkcələrində basılmış bitiq, az syda, Türkiyədə də yayılmışdır.

Asif Ata öləndə Ocağın özünəxas Yas quralı yox idi. Soylu Atalı yas quralı yönündə ilk "Gediş Yazısı"nı Asif Ata öləndə yazdı, bu quralla Asif Ata torpağa basdırıldı. Asif Atadan sonra yas, evlənmə qurallarının bitiq kimi yazılması gərəkliliyi ortaya çıxdı. Bunları, Ata ideyaları əsasında, Soylu Atalı işləyib hazırladı, Safruhun redaktorluğu ilə bitiq şəklinə salındı. Sonralar bu bitiqlər hər iki abedə (400 say olmaqla) iki yol basıldı. Həm kitab evlərinə, həm də tək-tək bireylərə bağışlandı. İstər Bakıda, Sumqayıtda, istərsə də bölgələrdə Ocaqçıların, Ocaq dostlarının yaxınlarının yasında Ocağın "Yas Quralı"nı dönə-dönə gerçəkləşdirdik. Günev Atalının Atagün Elində söz dediyi yerlərdən biri də yas yerləridir. Burada onun milli, insani yöndə söhbətlərinə önəm verilir, sorular sorulur. Son zamanlarda, özəl olaraq, belə yerlərə ardıcıl çağrılır da. Çünkü Günevin varlığında eşidilməli olanı eşidirlər, düşünürlər.

"Beşikbaşı Quralı" Asif Atanın sağlığında bir yol gerçəkləşdirildi. Evlənənlərə beşik bağışlandı, Atanın verdiyi Ruhsal Bəlgə ilə evlənmə öz içimizdə baş tutulmuş sayıldı. Atadan sonra "Beşikbaşı Quralı"nın bitiyi yazıldı. Ərkimiz çatan yerlərdə "Beşikbaşı Törəni" keçiririk. Ailə quranlara beşik bağışlanır, Ocaq Yükümlüsü Soylu Atalının yazdığı Ruhsal Bəlgə, hər iki abe'də Asif Atanın "Mütləqə İnam" Bitiqləri sunulur. Ailə yönlü, milli, insani yönlü düşüncələr dilə gətirilir, milli musiqilər səsləndirilir.

Asif Atadan sonra basın yayınlarında Soylu Atalının yazıları çıxmağa başladı. İstər gündəmlə bağlı, istərsə də Ata ideyalarından soraq verən araşdırıcı, publisistik yazılarıyla Soylu Atalı düşündürücü addımlar atdı, Ocağın mövqeyini göstərdi. Basında Ocaq səfərlərindən soraq verən bilgilər, Ocaq qurallarıı ilə həyata keçən istər yas, istər beşikbaşı törənləri, Ocaq tədbirləri də yer almışdır. Mətbuatla işləmləri Göylü Atalı həyata keçirdi. Sonradan Nurtəkin də, başqa Ocaqçılar da bu işə qoşuldular.




www.asifataocagi.com saytında çağaşırı Atanın yazıları, Evlad yazıları, gündəmlə bağlı araşdırma yazılar, Ocağın tədbirlərini, çalışmalarını bildirən yazılar yayımlanır.

Başqa bir www.turkelaq.org saytında isə türkçülüklə, genel olaraq millətçilliklə, bəşəriliklə bağlı yazılar yayımlanır. Soylu Atalının yaratdığı "Türkel Araşdırma Qurumu"nun söhbətləri milli dəyərlərimizin açımı, Azərbaycanın, Türk millətinin tarixindəki fəlakətlərin araşdırılması, çıxış yollarının göstərilməsi yönündədir. Güney Azərbaycanda baş verən proseslər, Türkmənçay, Gülüstan bağlaşmaları, türkün dəyərli şəxsiyyətləri (Babək, Ş.İ.Xətai, i.a.) haqqında söhbətlər tariximizə, günümüzə işıq salmaqla, düzgün dəyərləndirmə açısından önəmlidir. Bu söhbətlərə aydınlar, gənclər cəlb olunur, saytlarda, basında yayımlanır. Soylu Atalının redaktorluğu, Göylü, Nurtəkin Atalıların bilgisayar əməyi ilə bu söhbətlərdən oluşan iki üzdə (cilddə) "Özgürlüyümüz-Bütövlüyümüz-Bağımsızlığımız" bitiyi hazırlandı, arxivləşdi.

Eləcə də gənclərlə, Ocaq dostları ilə Nəimiyə, Nəsimiyə, Babəkin anım gününə həsr olunmuş tədbirlərin keçirilməsi, bu şəxsiyyətlər haqqında Ocaq düşüncəsini sunmaqla bərabər, həm də dəyərlərimizə, şəxsiyyətlərimizə verilən qiyməti ifadə edir. Bu tədbirlər zaman-zaman saytlarda yayımlandı, internet televiziyalarda bilgilər verildi.




Daha bir Ocaq yayını “Ruhani Evladlıq” adlı özəl buraxılış – 13 Yağış Ayı, 32-ci ildə (noyabr, 2010) Ocaqçıların maddi yatırımı, əməyi sonucunda basıldı.

“Ata Yolu” Özəl Buraxılışı – 12 Sərt Ayı, 35-ci ildə (dekabr, 2013), başqa sayı 15 Günəş Ayı, 38-ci ildə (mart, 2016) basılmışdır. Bu buraxılışlarda yığcam bilgi, Ocaqçı yazıları, milli-insani qonular öz əksini tapır.

37-ci ildə (2015) basılan “İnam Evi” adlı jurnalda həm Ocaqçıların, həm klassik, çağdaş araşdırmaçı, ədəbiyatçı, millətçi düşünərlərin yazıları verilmişdir.

Asif Atanın sağlığında Ata ilə canlı görüşlər keçirilirdi. Bu görüşlərin görüntüləri indi də əlimizdədir.

Atanın ölümündən sonra Soylu Atalının Sumqayıt, Bakı şəhərlərində oxullarda ardıcıl görüşləri olmuşdur. Bu görüşlərdə Ata ideyaları haqqında danışılmış, sorulara cavab verilmiş, Ocaq buraxılışları, günsıra vizitləri, Ocaq-türk abe’si, Ocaq ədəbiyatları paylanmışdır. Öncə Nurtəkinlə, Göylü Soylu Atalıya görüşlər təşkil edirdilər. Sonradan Soylu Atalının təkidi ilə özləri də görüş keçirməyə başladılar. Soylu Atalı Sumqayıt şəhərində bəzən bir oxuldakı görüşdən çıxıb başqa oxula görüşə gedirdi. Bir oxulda bir neçə yol görüş keçirilmişdir. 45-dən çox bölgədə Soylu Atalı oxullarda görüş keçirmişdir. Bölgələrdə olarkən yerli Kitab Evlərinə Asif Atanın kitabları bağışlanır, Mədəniyyət Evlərində, Diyarşünaslıq muzeylərində söhbətlər edilir, Ocaq soraqları verilirdi. Bölgəsəl qəzetlərdə də Ocaq söhbətləri aparılmış, yazılar sunulmuşdur. Bəzi bölgəsəl televiziyalarda – Mingəçevir, Quba, Yevlax, Gəncə televiziyalarında Soylu Atalı ilə müsahibələr təşkil olunmuş, efirə verilmişdir. Bir bölgəyə bir neçə yol səfərlər edilmişdir. Nurtəkinlə, Göylünün də bölgələrə ayrı-ayrılıqda səfərləri olmuşdur. Yaxın bölgələrə, Şamaxıya, Hacıqabula, Qobustana Göylü Atalının bir günlük səfəri olmuş, oxulda görüş keçirmiş, Kitab Evlərinə, Mədəniyyət evlərinə kitab bağışlamışdır. Nurtəkin Atalının Sabirabad, Quba, Göygöl bölgələrinə səfərləri, oxullarda görüşlər keçirməsi, Kitab Evində, Mədəniyyət Evində söhbətlər aparması, Ocaq ədəbiyyatları bağışlaması ilə sonuclanmışdır. Bəzən bir neçə Ocaqçının birlikdə səfəri olmuşdur. 33-cü ilin Sərt Ayında Soylu, İnamlı, Göylü, Nurtəkin Atalıların Ağstafa, Qazax, Tovuz səfərlərində Soylu Atalı Ağstafa orta oxulunda görüş keçirmiş, Göylü Atalı isə Tovuz rayonunun orta oxulunda görüş keçirmişdir. Sonra Ağstafada Ata Sonevi ziyarət olunmuşdur.

33-cü ildə “Atagün” Ailəsi yarandı. Soylu Atalının, eləcə də Ocaqçıların, bəzən Ocaq dostlarının qatqısı ilə Atagün Elində (Beyləqanda) Ailə günləri keçirilib, qonaqlar çağrılıb. Günev Atalının Elana ilə birgə Atagün Eli (Beyləqan), Ağcabədi, Füzuli bölgələrinin ayrı-ayrı kəndlərinə səfərləri olub, Ocaq soraqları yayıblar. Gü-

nev Atalının başqa bir uğuru isə Örənqalada İnam Evinin (Məbədinin) tikintisidir. İlk yol Ocaq ideyasına uyğun bir layihə ilə başa gələn bu tikili Ocağın ərdəmlik göstəricisidir. Başlanğıcda təpkilərin olmasına baxmayaraq, Günev Atalı geri addım atmadı, Ocaq onun arxasında durdu. İndi bu bölgədə Günev Atalıya qarşı sayğı artmaqdadır.

Soylu Atalı Borçalı mahalına hər gedişində insanlarla söhbətlər aparıb, kitablar bağışlayıb. İstər toplu insanlarla, istər bireysəl olaraq, dönə-dönə görüşlər keçirib.

Keçirilən görüşlərdən, söhbətlərdən, yayımlanan yazılardan dolayı Ocağı araşdırmağa başlamışlar. Bu doğaldır. Soylu Atalı bir neçə yol Dövlət Təhlükəsizlik orqanlarına çağırılmış, dindirilmiş, ancaq suçlamağa səbəb tapmamışlar. 29-cu ildə Xəzan Ayında Ağsu-Göyçay-Ucar-Mingəçevir bölgələrinə səfər zamanı da belə oldu. Ağsuda 4 oxulda görüş keçirdikdən, Kitab Evində, Tarix Diyarşünaslıq muzeyində söhbətlərdən sonra Soylu, Göylü, Nurtəkin Atalılar Göyçayda olmuşlar. Göyçayın hüquq-qoruma işçiləri onları sorğulara çəkmişdilər. Yenə də səbəb tapılmamış, sərbəst buraxılmışlar. Soylu Atalı onlara da Ocaq ədəbiyyatları bağışlamışdır. Elə həmin günlərdə Ucara səfər olunmuş, orta oxullarda Nurtəkin ayrılıqda, Soylu Atalı da ayrılıqda görüşlər keçirdikdən sonra, Mingəçevirə səfər etmişlər. Orda da 9 oxulda görüş keçirilmiş, Soylu Atalının Mingəçevir televiziyasına müsahibəsi gerçəkləşmişdir.

Geneldə Soylu Atalı bir neçə yol Abşeron rayon hüquq-qoruma orqanlarına çağırılaraq dindirilmiş, araşdırma üçün evindən ədəbiyatlar götürülmüşdür. O isə, Ata ideyalarının məqsədini açıqlayaraq, özü onlara kitab bağışlamış, Atanı öyrənməyə çağırmışdır.

38-ci ildə (2016) Bakıda Göylünün təşkil etdiyi orta oxuldakı görüşdən sonra Soylu Atalı, eləcə də Göylü, Güntay, Nurtəkin Atalılar Baş Mütəşəkkil Cinayətkarlıqla mübarizə idarəsinə çağırılıb dindirilmişlər. Onlara görüş keçirməmələrini uyarmışlar.

Son illərdə İnamlı Soylu Atalının Sabirabad, Biləsuvar bölgələrində, Laçın, Cəbrayıl bölgələrinin Bakıdakı oxullarında, eləcə də Bakıdakı orta oxullarda görüşlərini təşkil etmişdir.

Dediyimiz kimi, başqa Ocaqçıların da bölgələrə səfərləri olmuş, Mədəniyyət Evlərinə, Gənclər Mərkəzinə, muzeylərə gedərək, Ata ideyalarından söhbət aparmış, Ocaq ədəbiyyatları bağışlamışlar.



Güney Azərbaycandan, Türkiyədən, Kərkükdən gələn, başqa ölkələrdə yaşayan soydaşlarımızla, aydınlarla Soylu Atalının dönə-dönə görüşləri olmuşdur, qonaqlara Ocaq ədəbiyyatları bağışlanmışdır.

Ayrı-ayrı çağlarda Göylü, Nurtəkin Atalıların Türkiyəyə səfəri olmuşdur. Bu səfərdə onlar ayrı-ayrı insanlara Ocaq sorağı vermiş, ədəbiyatlar bağışlamışlar.

Bir sözlə, Atadan sonra Soylu Atalı çoxsaylı görüşlər keçirmişdir. Bütün görüşlərin sayını bir yazıda demək çətindir. Baş tutan görüşlərdən başqa alınmayan, icazə verilməyən görüşlər də var. Hər qapını döydükdə açmırlar. Ancaq heç zaman Ocaqçıların ümidi azalmayıb. Onlar bölgələrə səfərlərini, bağışladıqları Ocaq ədəbiyatlarını öz maddi yatırımları ilə həyata keçirmişlər. Uğursuzluğu saymamış, uğurla qanadlanmışlar. Hər atılan addım Ocaqçıları başqa addıma kökləyib, həvəsləndirib. Ataya layiq olduqlarını əməllərlə təsdiq etmişlər.

Atadan sonra Evlad Bitikləri də basılıb. Soylu Atalının 5 bitiyi – "İnamçı Harayı", "İnam sorağında", "İnsanlığın İnam Yolu", soykökü ilə, yurdu ilə bağlı bitikləri basılmış, iki bitiyi də çapa hazırlanmışdır. Nurtəkin Atalının "Heyrətimin inciləri", Günev Atalının "İnamlı illərimin harayı", Ulusəs Atalının "Sabahlı İnamım" bitikləri basılmış, görüşlərdə insanlara, Kitab Evlərinə sunulmuşdur.




Asif Ata, Ocaq Bayramlarının məzmununu, anlamını yazsa da, sağlığında bayramları gerçəkləşdirmək alınmadı. 20-ci ildən başlayaraq, Soylu Atalının yaradıcılığı əsasında bayramları gerçəkləşdirməyə başladıq. Bölgələrdə də, yerli insanların qatqısı ilə, Ocaq bayramları keçirilmişdir. Tovuz, Quba, Şəmkir, Atagün Eli (Beyləqan), İsmayıllı bölgələrində keçən bayramlar insanlarımızın halını etkiləmişdir.

Ocağın 22-ci ilində Tovuzun bir sıra kənd oxullarında görüşlər olmuş, Əhmədabad kəndinin insanları ilə birgə "İnsanilik Bayramı keçirilmişdir.

Atanın ölümündən sonra gerçəkləşən başqa bir olay da "İnam Evi Günü" töränidir.

Göylü Atalının təşəbbüsü ilə "Qutsal Öyrənim Günü" tədbirləri həyata keçdi. Tədbir Atanı öyrənmək, öyrətmək istəyi ilə həm Ocaqçılar, həm də Ocaqdostlarının qatqısı ilə gerçəkləşdi. Ata Bitiqlərindən öyrənmələr, sorular-cavablarla keçən tədbir yalnız Atanı araşdırmaq deyil, həm də özünü araşdırmaq, bilmək açısından önəmlidir.

Ata ədəbiyatlarının, əlyazılarının hazırlanıb dövlət arxivinə verilməsini, gələcək soylara araşdırılma üçün,

gərəkli qaynaq saymaq olar. Atanın səsi yazılmış 4-6 saatlıq diskləri də (genel sayı 70-ə yaxın idi) Dövlət Texniki arxivinə verildi.

Hər bir Ocaq tədbiri, səsdən yazıya çevrilərək, kitablaşdırılır. Soylu Atalı redaktə edəndən sonra Nurtəkin, Göylü kitab kimi hazırlayıb üzləyirlər. "Ailə Günü" kitabları, "Mərasimlər Kitabı", "Bayramlar" Kitabı bu yöndədir. Səsdən yazıya çevirmə işlərində başqa Ocaqçıların da əməyi var.

Göylü Atalının Ocaq tarixi üçün önəmli əməllərindən biri də Ata ilə, Ocaqla bağlı, eləcə də Soylu Atalının əsərləri üstə hazırladığı filmlərdir. Bu filmlər Soylu Atalının senarisi üstə hazırlanıb. Ata ömrü, Ata ideyaları, Ocaq əməlləri haqqında ilkin bilgilər verir, genel təsəvvür yaradır.

Azərbaycan radiosunun Güney Azərbaycan şöbəsində Soylu Atalının ardıcıl çıxışları yayımlanıb. Soylu Atalı, ayrı-ayrı radio verilişlərində də, çağaşırı milli-insani söhbətləri ilə insanlarımızı düşünməyə çağırıb. İnternet televiziyalarda, ayrı-ayrı kanallarda Ata ideyalarına yönəlik söhbətlər yayımlanıb.

Beynəlxalq radiolarda – BBC, Azadlıq, eləcə də Azərbaycan respublikasında şöbəsi olan Günaz tv-də Soylu Atalının Ocaqla bağlı bilgiləri, ayrı-ayrı qonularda söhbətləri, müsahibələri yayımlanmışdır. Geneldə 40-dan çox bu sayaq verlişlər getmişdir.

Asif Atanın 80 illiyi ilə bağlı özəl törən keçirildi, bədii-texniki cəhətdən yüksək düzeydə hazırlanaraq, uğurla sonuclandı.

Ocaq Bayrağı Atanın sağlığında əl ilə 2 sayda hazırlanmışdı. Sonradan Soylu Atalının önərisi ilə Ocaq Bayrağı bir neçə yol çap edilmiş, Güntay Atalı 38-ci ildə yenidən atlas parçadan hazırlayaraq Ocağa sunmuşdur. İndi bir neçə Ocaqçının evində İnam Bayrağı vardır.



Ata görüntülərinin köhnə kassetlərdən disklərə köçürülməsi əməli Ulusəs Atalının yatırımı ilə olmuşdur. Gələcək üçün bu görüntülərin həm saxlanmasına, həm də Ocaqsevərlərə Atanın görüntüsünün paylanmasına olanaq yaratdı. Yüzdən çox fotolent (Ocaqçıların yatırımı ilə) elektron varianta keçirilmişdir, arxivdə qorunur.

Ocaq Günsırası vizit şəklində hər il basılaraq, görüşlərdə, söhbətlərdə bağışlanır.

Hər bir Ocaq tədbiri səsdən yazıya çevrilsə də, disk şəklində də arxivləşib. Bitiqlərin hazırlanması üçün Güntay kağızlar, çap qurğusu təşkil edib.

Ocaq tədbirlərinin görüntülərinin disk şəklində arxivləşməsi ardıcıl olaraq davam edir. Eləcə də sitelərdə yayımlanmaq üçün bəzi tədbirlərdən görüntülər kəsilir, saytlara yerləşdirilir. Bu işdə də Nurtəkinin əməyi davamlıdır.

Saygılı soydaşlarımız, burada yazılanlar həyata keçən əməllərin bütöv adsırası deyil. Hər bir əməlin arxasında ömür durur. Özündənkeçmə, sevgi, ləyaqət, sorumluluq durur. Bu əməllərdir Ocağı yaşadan, Atanı yaşadan. Bu əməllərdir Ataya, Ocağa bağlılığı göstərən. Bu əməllər milli, insani varlığımızın yaşaması, qurulması, qorunması üçündür. Yol da sonsuzdur, əməllər də.

Atamız Var olsun!

***Köçəri Ayı, 40-cı il.***

# TÜRKDƏN QORXU TÜRKƏ BÖHTAN YARATDI

*Asif Ata*

Azərbaycan xalqı – Görünəndən artıqdır. Onun Şərqiliyi də ölməyib, Türklüyü də.

SSRİ İmperiyasının qorxduğu bir qüvvə vardı – Türklər. Qərbin qorxduğu bir qüvvə var – Türklər.

İndi də türkdən qorxurlar, bu səbəbdən də onu təkləyirlər. Dünya Ağaları Türkü sevmir; – Türkün Ağaları taxtdan salmasından qorxur.



Sönməyən közü Alışdırmaq gərək.

Vətən bizim ölməzliyimizdir. Onu qorumasaq, ölərik.

Rusiya İmperiyasının qorxduğu bir qüvvə vardı – Türklər.

Qorxu Böhtan yaratdı – "Türk vəhşiliyi" böhtanı. Türkün mədəniliyini dandılar, mərdliyini avamlıq kimi, sərtliyini qəddarlıq kimi qələmə verdilər, yaradıcı dühasını inkar etdilər.

Xalq Fəlakətdən kiçilməsin

Bu gün biz Sosializmdən Kapitalizmə qayıdırıq.

Bir uçurumdan çıxıb – başqa uçuruma düşürük.

Adamlarda pulçuluq, Ağa-

lıq – əslində Yırtıcılıq Duyğularını alışdırırlar. Dövlət istismarı təzədən Sahibkar istismarıyla əvəz olunur.

Bazar İqtisadiyyatı adıyla xalqı təzə milyonçuların əsarətinə salırlar.

Dəllallıq az qala mənəvi ölçüyə çevrilir: insana münasibətlərin təzə təməlini – mənfəətçilik özülünü yaradırlar.

Siyasətbazlıq – müdrikliyi əvəz eləyir; idealsızlıq – yetkinlik sayılır.

SSRİ ləğv olunur – əvəzinə Rusiya imperiyası möhkəmlənir – Yeltsinşina Dəyənəyi yaranır – Xalqların başına dəyəcək.

Vicdan azadlığı pərdəsi altında Cəfəngiyyat, Xurafat, Avamlıq zəncirinə bağlayırlar adamları.

Qıvrılıb yatmış görünən ilanlar baş qaldırıb camaatı çalır.

Riyakarlıq baş alıb gedir: kommunistlər "fanatikcəsinə" antikommunistləşirlər, ateistlər "fanatikcəsinə" dindarlaşırlar…

Dünya erməni havası çalır.

Demokratiya zəngin Köpük yaradıb, Köpük aləmi tutub, "böyüklər" əlindən tərpənmək olmur.

Partiya rəhbəri partiyanı yetkincəsinə satır və bundan iyrənən yoxdur, siyasi çevikliyə heyran qalanlar var…

Maddi böhran o qədər dəhşətlidir ki, ruhani iflas görünmür.

Xalqı ağır günlər gözləyir.

Ata əlindən gələni eləyir ki, xalq fəlakətdə kiçilməsin, böyüsün.

***

Mənim Yolum – İnam Yoludur. Məqsədim Dini, Ateizmi İnamla əvəz etməkdir. Din yalançı İnamdır – qismətçilikdir, itaətçilikdir, cənnətçilikdir, cəhənnəmçilik, əfsanəçilikdir. Ateizm – Mütləqiliyin, ruhçuluğun inkarıdır, maddiyyatçılıq dinidir.

İnam dünyanı öz Mənasına tapşırır, həyatı öz Mənasına tapşırır, insanı öz Mənasına tapşırır; dünyanın mənasını əzəli sayır, əbədi sayır, sonsuz sayır, kamil sayır; dünyanın hansısa bir bənna tərəfindən tikilməsinə, hansısa bir hökmdar tərəfindən idarə olunmasına inanmır.

İnamda dünya öz Dünyalığından yaranıb, həyat öz Həyatlığından yaranıb; dünya üzərində dünyadan qeyri Qüdrət yoxdur. Dünyaya İnam – Dünyanın Mənasına İnamdır.

Mən Mütləqə inanıram, yəni dünyanın, həyatın, insanın əzəli, əbədi, sonsuz, kamil Mənasına – hadisələrdən, təzahürlərdən artıq olana – Dünyadakına. Əminəm ki, keçici, dəyişkən, sonlu, qeyri- kamil, nisbi hadisələrin arxasında Mütləq Məna dayanıb; dünya mütləq təmələ malikdir; bu səbəbdən də Dünya Binası – uçmur, uçmayacaq; dünya tikilməyib, yaradılmayıb, – öz Mənasından yaranıb.

Mən İnam yaradıcısıyam – cadugər deyiləm, caduya inanmıram; elmə, biliyə, fəlsəfəyə əsaslanır İnamım – cəhalətə əsaslanmır, cəfəngiyyata əsaslanmır; Kitabları özüm yazmışam – onlar xaliq tərəfindən nazil olunmayıb; atəşli fəhm qolumdan tutub – ancaq gözlərimə heç bir əsrarəngiz Varlıq görünməyib, qeybdən gələn səslər də eşitməmişəm – heç bir Yaradanın hökmünü yerinə yetirmirəm; hipnozçuluğum, transçılığım da yoxdur; İnam Yaradıcısı Yükünü daşıyıram; çığırtılar sərməstliyinə laqeydəm, təmənnasızlıq və fəakarlıq aqibətində sabitəm. İnamımla yaşayıram; qısa ömrü uzun ömürlü Amala həsr eləmişəm – zənnimcə, bu – Müdrik Qətiyyətdir.

Məqsədim – Mütləqə İnam əsasında İnsan yetişdirməkdir. Yüksək idrak, yüksək mənəviyyat, yüksək iradə səviyyəsində Xalq becərməlidir Ocaq. İnsanlaşmalıdır adamlar – onda bəşər fəlakətdən xilas olacaq.

Mənim fəlsəfəmdə insan özündə Mütləq Məna gəzdirən və bu səbəbdən də şəraitdən, mühitdən, cəmiyyətdən üstün olan, Mütləqiliyə can atan və Mütləqləşməyə qadir olan Ruhani Varlıqdır ("Ruh" sözündə heç bir xurafat yoxdur; o, İnsaniliyin rəmzidir – İnam, İdrak, Mənəviyyat, İradə birliyidir).




| | Günəş (Mart) | Çiçək (Aprel) | İşıq (May) | Şölə (İyun) | Od (İyul) | Qürub (Avqust) |
|---|---|---|---|---|---|---|
| Arzu | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 |
| Ümid | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 |
| Dözüm | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 |
| Mərhəm | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 |
| Qismət | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 |
| Murad | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 31 |
| İnam | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 |

**- 41 - Qutsal Quruculuq İli**

| | Ata (Sentyabr) | Xəzan (Oktyabr) | Yağış (Noyabr) | Sərt (Dekabr) | Qar (Yanvar) | Köçəri (Fevral) |
|---|---|---|---|---|---|---|
| Arzu | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 3 10 17 24 |
| Ümid | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 4 11 18 25 |
| Dözüm | 4 11 18 25 | 2 9 16 23 30 | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 5 12 19 26 |
| Mərhəm | 5 12 19 26 | 3 10 17 24 31 | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 6 13 20 27 |
| Qismət | 6 13 20 27 | 4 11 18 25 | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 31 | 7 14 21 28 |
| Murad | 7 14 21 28 | 5 12 19 26 | 2 9 16 23 30 | 7 14 21 28 | 4 11 18 25 | 1 8 15 22 |
| İnam | 1 8 15 22 29 | 6 13 20 27 | 3 10 17 24 | 1 8 15 22 29 | 5 12 19 26 | 2 9 16 23 |

www.asifataocagi.com; www.turkel-aq.org
(051) 585-56-97; (050) 527-70-50; (050) 624-67-43

İnsanlaşmadan ləyaqətli həyat qurmaq olmaz.

İndiki vaxtda Türk Birliyinin qarşısında iki böyük maneə durur: Qərbçilik və İslamçılıq. Məqsədim – Yurdumuzdan, Azərbaycanımızdan müqəddəslik ölkəsi yaratmaq, onu Ruhaniyyat Mərkəzinə çevirmək, Türk şərqiliyinin bəşəri mahiyyətini təsdiq etməkdir. Məqsədim – kapitalizm və sosializm dairəsini yaran İnsani-Ruhani Cəmiyyətdir. Məqsədim – müstəqil Vətəndir; müstəqil iqtisadiyyat, müstəqil siyasət, müstəqil mədəniyyət birliyidir.

Məqsədim – Şərq özümlüyüdür: qərbçiliyi, təqlidçiliyi rədd edən.

Məqsədimi zorakılıq, başkəsənlik yoluyla həyata keçirmək niyyətində deyiləm; bağbanlıq aqibəti seçmişəm – ağıllarda, ürəklərdə, iradələrdə İnam yetirmək, İdrak yetirmək, Mənəviyyat yetirmək – dünya insan acıdır, İnsan azlığından əzab çəkir; İnsan vermək lazımdır dünyaya ki, dünya məhv olmasın.

Qərbçilik – türkləri ümumi Qərb dairəsinə salır – özgələşdirir: tədricən, aramsız, məharətlə, siyasətcil. İslamçılıq – türkləri müsəlmançılıq dairəsinə salır – özgələşdirir, xurafat qaranlığına qərq eləyir.

Qərb ölkələri özlərini "xristian aləmi" adlandırmırlar; ancaq Şərq ölkələrinin çoxunu İslam Dünyasına aid edirlər; əslində onları qeyri-mədəni sayırlar. Şərqlilərin arasında bu fərqlənməylə qürrələnənlər tapılır.

İslamçılıq türkçülüyə Qərbçilikdən az ziyan vermir. Türkçülüyə qarşı təkcə qərbçilik dayanmır: iki qütb Türkçülüyə qarşı birləşir.

Zənnimcə, türklər Mütləqə İnam əsasında birləşməlidirlər.

İnsaniləşmə əsasında birləşməlidirlər.

Ruhani Cəmiyyət əsasında birləşməlidirlər.

Özümlü Şərq əsasında birləşməlidirlər.

Ocaq əsasında birləşməlidirlər.

**İnam Evi dərgisinin Özəl Buraxılışı**

1 Günəş Ayı 41-ci il
(01.03.2019)

Buraxılışa sorumlu:
Göylü Atalı

Tel: (051) 585 56 97;
(055) 565 36 97
(050) 527 70 50

**www.asifataocagi.com**
**www.turkel-aq.org**

E-mail: soyluatali@mail.ru
goylum@mail.ru

"Elm və təhsil" nəşriyyatının direktoru:
Professor Nadir MƏMMƏDLİ

Texniki redaktor: Yadigar Mirbağırzadə

Çapa imzalanmış 27.12.2019

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Тел: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4